

■ **Füzuli Əsgərli**
*Filologiya üzrə fəlsəfə doktoru, dosent*

# Poeziyanı istedadlar yaşadır

Poetik fikir yaratmaq və bu duyğularla tələbkar oxucuları öz arxasınca aparmaq üçün ilahi vergili olmalısan, obrazlı söz və ifadələri dərindən duya bilməlisən, özünəxas üslubun olmalıdır, tapdaq olunmuş cığırla getməyəsən, özünə yeni cığır açasan və yalnız bundan sonra qəvvas kimi poetikanın dərin qatlarına baş vura bilərsən. Əgər bu keyfiyyətlər cəmləşibsə, deməli? qələminin gücü də elə burdadır. Görkəmli fransız şairi və ədəbiyyatşünası Nikola Bualo (1636-1711) özünün "Poeziya sənəti" kitabında əbəs yerə qeyd etmirdi ki, kütləvi şəkildə hamıya məlum olan, çox işlənib sürtülmüş və ütülənmiş misralar özünə bircə nəfər olsa da pərəstişkar tapa bilmir. Yerində deyilmiş fikirdir. Əlbəttə, bunun üçün gərək istedad sahibi olasan, hər bir sözün də-yərini biləsən, onu cilalayıb brilyant əmələ gətirilən tərzdə poeziyanın başarlı sərhədini aşıb bu sənətə qol qoya, öz istəyinə çata bilərsən.

Söz deyim və duyumunu öz misralarında yaşadan, orijinal lirik şeirlərini oxuculara ərməğan edən gənc şairə Aynur Qafarlının "Mən tanrıma sevdalıyam" kitabı (2019) istər-istəməz diqqət çəkir. Müəllifin bu ilkin kitabını vərəqləyib oxuduqca debüt yaradıcılıq olduğunu hiss etmirsən, poetik misraların bişkin qələmdən çıxdığının şahidi olursan, sonralar obrazlı söz deyə biləcək istedadlı bir qələm sahibinin bədii yaradıcılığının gələcəyini görə bilirsən.

Kitabda verilmiş şeirlər "Vətəni seveni Allah da sevər", "Ömür tükənmədi, ömür yaşandı", "Kimsə xatırlarmı səni mən qədər", "Qəzəllər" başlıqları ilə qruplaşdırılmışdır. Bu başlıqlar altında verilmiş poetik misraların hər biri obrazlı fikir və ifadələrlə zəngindir, gənc şairə özünəməxsus üslubla Azərbaycan dilinin ifadə vasitələrindən məharətlə istifadə edərək kövrək lirik misralarında fəlsəfi duyğularını verməyə çalışır və əsasən də buna nail olur.

Kitabdakı ilk şeir "Mənim Qarabağım - mənim ürəyim" adlanır. Şair bu şeirində yaralı yerimiz olan Qarabağın içindən çəkdiyi dərdləri poetik misralarla özü də qəlbinin süzgəcindən keçirir, onun keçirdiyi iztirablı anlarına şərik olur:

*Nə zamandır, doğma eldən aralı*
*Keçdi günlərimiz yaslı-qaralı.*
*Biri yaralıdı, biri paralı:*
*Mənim Qarabağım - mənim ürəyim.*

*Dağlar çən qubarlı, dərələr qəmli,*
*Xarı bülbülümün gözləri nəmli.*
*Taleyi qaralı, ömrü sitəmli:*
*Mənim Qarabağım - mənim ürəyim...*

Vətənpərvərlik motivli şeirlər bir-birini əvəz edir, şairənin coşqun qəlbindən hayqıran "Qisas gərəkdir" nidası təlatümlü dənizi xatırladır, bədiilik, obrazlılıq, poetikliyin daxilində tər-təmiz səmimi ifadələr dayanır. Nəticədə şairənin poetik duyğularının arxasınca istər-istəməz getməli olursan:

*...Bu dərdə, fərağa dözmək çətindi,*
*Çətindi Vətəndə vətənsiz olmaq.*
*Dağlar nə olsun ki, mərddi, mətindi,*
*Mərdə yaraşarmı saralıb-solmaq?*

Kitabda yetərincə vətənpərvərlik duyğuları aşılayan şeirlər vardır. "Can Azərbaycan", "Vətəndir", "Vətən getsə, sonundu", "Vətən eşqi", "Şəkinin bağlarında" və digər şeirlərdə yara- dıcı xəyal, yaddaşa həkk olunan poetik obrazlılıq çalarları görmək mümkündür.

"Ömür tükənmədi, ömür yaşandı" başlığı altında düzümlənən şeirlərdə nəsihətamiz poetik ifadələr oxucunun diqqətini daha çox cəlb edir. Aşıq yaradıcılıq üslubu ilə qələmə alınmış "Tanınar" şeiri bu baxımdan daha xarakterik görünür:

*...Ahıl gərək əyilməsin yolundan,*
*Ar eyləsin saqqalının çalından.*
*İsmətli qız yanağının alından,*
*Qabil oğul fərasətdən tanınar.*

*Zaman dəryaz, ömür zəmi - biçilər,*
*İradəsiz hər alçağa kiçilər.*
*Yalançı dost dar ayaqda əkilər,*
*Vəfalı dost sədaqətdən tanınar.*

Sevgi şeirləri Aynurun yaradıcılığında olduqca orijinal səslənir. "Vəfalı gözələ can qurban gərək", "Haçansa unudacaqsan", "Tapmayacaqsan", "Qaytara bilsəydim", "Bax" və sair şeirlərindən klassik xalq poeziyasının ətri duyulur, bu günün hiss və duyğuları isə öz müasirliyini saxlayır. Bunları görmək üçün təkcə "Bax" şeirinin misralarına baxmaq kifayətdir:

*Sevginin sehrini görmək istəsən,*
*Eşq ilə qaynayan bulaqlara bax.*
*Hər çala bir özgə quş öpüşüdü,*
*Sal qaya üstündə oymaqlara bax.*



*Laciverd buludlar naz da satacaq,*
*Üfüqün dizində gecə yatacaq.*
*Sevgi cilvəsinə ayna tutacaq,*
*Günəşlə açılan sabahlara bax...*

A.Qafarlı öz kövrək qələmini hər janrda sınamağa çalışır və bəzən əruz vəzninə də nüfuz etməyə cəsarəti çatır, az sayda olsa da qəzəllər qələmə alır. Onun görkəmli şair M.Füzulinin qələmə aldığı:

*Canı kim cananı üçün sevsə, cananın sevər,*
*Canı üçün kim ki cananın sevər, cananın sevər, -*

qəzəlinə yazdığı nəzirə onun bu janrda da uğur qazanacağına zəmanət verir:

*Sevmək aşiqlik deyil, cananı can xətrinə,*
*Sevməlidir əhli-dil canı canan xətrinə.*

*"Canan üçün xaç asıb, kafirə dönnəm", - demə,*
*Asta danış, dəyməsin Şeyx Sənanın xətrinə.*

*Tanrıya xatir uca saxlayaq hər niyyəti,*
*İnamı din xətrinə, dini iman xətrinə.*

*Bir şəhadət kəlməsi min bir ibadət demək,*
*Göydə mələklər durar şuri-azan xətrinə.*

*Bəndəliyi xaliqə - Aynurun ilham kanı,*
*Bir salavat zikr edin nəzmi yazan xətrinə.*

Təhlillərdən də göründüyü kimi, A.Qafarlı şifahi xalq yaradıcılığının axıcı poetikasını, onun obrazlılığını, müasir poeziyamızın təməl daşı olan klassik ədəbiyyatımızı dərindən duyur, bu əsrarəngiz nəqşlərlə öz şeiriyyatına bəzək vurur, onun bu günün davamçısına çevrilir.

A.Qafarlı Türkiyə oxucularının da sevgisini qazanmışdır və "Mən tanrıma sevdalıyam" şeirlər kitabı orada çap olunmuşdur.

Mən Aynur xanıma ədəbi mühitdə yeni uğurlar qazanmasını, çoxsaylı oxucular əhatəsində olmasını, özünün qüdrətli qələminə güvənməsini arzulayıram!!! Poeziyanı yalnız istedadlar yaşadır!

Kaspi 2020.- 15-17 fevral.- S.12.